UOT: 327(55:479.25)

ELNUR KƏLBİZADƏ
tarix üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
kelbizadeh@gmail.com

ELM VƏ TƏHSİL SAHƏSİNDƏ İRAN-ERMƏNİSTAN ƏMƏKDAŞLIĞININ PƏRDƏARXASI MƏQAMLARI VƏ REALLIQLAR

DOI: https://doi.org/10.36719/2708-065X/110/134-139

Məqalədə 1991-2025-ci illərdə İran və Ermənistan arasında "humanitar və mədəni əməkdaşlığın" başlıca istiqamətlərindən biri olan elm və təhsil sahəsində əlaqələrin gerçək mahiyyəti tədqiq edilmişdir. Tədqiqatdan aydın olur ki, İran və Ermənistan arasında 1991-ci ildən etibarən elm və təhsil sahəsindəki əməkdaşlıq, formal humanitar əməkdaşlıq pərdəsi altında həyata keçirilsə də, əslində hər iki tərəfin regional və geosiyasi məqsədlərinə xidmət etmiş, bu sahədə birgə fəaliyyətlər həm də hər iki dövlətlə kəsişən və toqquşan maraqları olan Azərbaycan Respublikasına qarşı yönəlmişdir. İran üçün bu əməkdaşlıq Cənubi Qafqazda, xüsusilə Ermənistan vasitəsilə təsir dairəsini genişləndirmək, özünü regionda "sivilizasiya mərkəzi" kimi təqdim etmək və Azərbaycana qarşı alternativ tarixi-mədəni narrativlər yaratmaq üçün əlverişli bir vasitə olmuşdur. Ermənistan isə bunu İrandan iqtisadi və informasiya-ideoloji dəstək əldə etmək, öz təbliğatını İran ərazisindəki erməni diasporu vasitəsilə həyata keçirmək imkanı kimi qiymətləndirmişdir.

Açar sözlər: İran, Ermənistan, humanitar əməkdaşlıq, elm, təhsil, geosiyasət, tarixi narrativ.

Giriş. Müasir beynəlxalq münasibətlər sistemində "humanitar əməkdaşlıq" anlayışı getdikcə daha çox geosiyasi məna kəsb edir. XX əsrin 90-cı illərin əvvəllərindən etibarən İran və Ermənistan arasında humanitar əməkdaşlıq pərdəsi altında reallaşdırılan fəaliyyətlər regionun təhlükəsizlik arxitekturasına, xüsusilə də Azərbaycanın milli maraqlarına birbaşa təsir göstərmişdir. Ermənistanın İran vasitəsilə öz təbliğat və təsir imkanlarını genişləndirməsi, İranın isə bu münasibətlərdən istifadə edərək Cənubi Qafqazda təsir imkanlarını gücləndirmək cəhdləri yeni regional reallıqlar formalaşdırmışdır. Tədqiqatın başlıca məqsədi 1991–2025-ci illər ərzində İran və Ermənistan arasında təhsil və elm sahəsində əlaqələrin əsas istiqamətləri, məqsədləri və nəticələrini təhlil etmək, bu əməkdaşlığın pərdəarxası siyasi məqamlarını üzə çıxarmaq, onun Azərbaycan üçün doğurduğu təhdidləri müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqat elm və təhsil sahələrində iki ölkə arasında əməkdaşlığı konstruktivist nəzəriyyə əsasında təhlil edilməsini nəzərdə tutur. Bu kontekstdə identiklik, ideologiya kimi sosial amillərin – İranın və Ermənistanın dövlət kimi davranışlarına necə təsir göstərdiyinə xüsusi diqqət yetirilir.

Əsas hissə. İran–Ermənistan münasibətlərinin humanitar əməkdaşlıq istiqamətləri içərisində təhsil və elm sahəsindəki əlaqələr xüsusi yer tutur. Təhsil və elmi əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin özünü regionda "mədəniyyətlərarası körpü" kimi təqdim etməsi cəhdlərinin tərkib hissəsi olmuşdur. Bu kontekstdə İran Ermənistanda fars dilin tədrisinin genişlənməsi məsələsinə xüsusi diqqət yetirmişdir. Bunu özünün bu ölkədə təsirlərini genişləndirmək üçün vasitələrdən biri olaraq görmüşdür. Əgər XXI əsrin əvvəllərində Ermənistanda 10-a yaxın məktəbdə fars dili tədris olunurdusa [12, s.78], son illərdə onların sayı 15-ə çatmışdır. Bundan əlavə, İrəvanda fəaliyyət göstərən Göy Məsciddə İranın Mədəniyyət Mərkəzi tərəfindən pulsuz fars dili kurslarının təşkili, İrəvan Dövlət Universitetində İranşünaslıq kafedrasının fars dili üzrə təşkil etdiyi yay məktəbləri humanitar alətlərdən istifadə etməklə təsiri gücləndirmək siyasətinin tərkib hissəsi hesab edilə bilər.

Ermənistanın da İranın dövlət və hökumət orqanları üzərində müəyyən təsirə malik olmaq üçün oxşar alətdən istifadə etdiyini iddia etmək olar. İranın Tehran, Təbriz, İsfahan və Urmiya kimi şəhərlərində fəaliyyət göstərən erməni məktəbləri [7, s.29] 1991-ci ildən sonrakı dönəmdə Ermənistan üçün diaspor vasitəsilə ideoloji təsir imkanları artırmağa imkan verən vasitə olmuşdur. 2000-ci illərin əvvəllərində İrandakı erməni məktəblərinin sayı 30-dan artıq olmuşdur [3, s.85]. Hazırda isə təkcə İran

paytaxtı Tehranda təxminən 7000 şagirdi olan 25 erməni məktəbi vardır [5, s.20]. Tehranda Aharonian Erməni Bağçası və İbtidai Məktəbi (8-ci rayon, Zərrinqabayi küçəsi), Erməni Ararat Məktəbi (İsna-əşəri küçəsi), Şant Erməni Məktəbi (8-ci rayon, Rəhməti küçəsi), Məryəmiyan Məktəbi (8-ci rayon, Rəhməti küçəsi), Araks Erməni Qız Məktəbi (Abdeh), Gohar Erməni Məktəbi (4-cü küçə); Təbrizdə Əsədi Erməni Məktəbi (Kilsə xiyabanı, Baron Avak küçəsi); İsfahanın Şahinşəhr bölgəsində İsfahan Erməni Məktəbi, Müqədəs Vartan İbtidai Məktəbi fəaliyyət göstərir.

Ali təhsil sahəsində də əlaqələr mövcuddur. İrandan Ermənistana ali təhsil almağa gedən tələbələrin sayı 2000-ci illərin ortalarında xeyli artsa da son illərdə burada geriləmə qeydə alınmışdır. Məsələn, 2005-2006-cı tədris ilində onların sayı 3700 nəfərə yaxın idi. Onlar əsasən İranşünaslıq, tibb və incəsənət ixtisaslarında təhsil alırdılar [6, s.113-114]. 2022-ci ildə aparılmış bir araşdırmada isə Ermənistanda təhsil alan İran vətəndaşlarının sayı 3000 civarında göstərilmişdir [1].

İranda təhsil alan erməni tələbələrin sayı isə müqayisədə daha azdır. 2016-2017-ci tədris ilində İranda yalnız 6 erməni tələbə təhsil almışdı ki, bunlardan da 2-si fəlsəfə doktoru, 3-ü magistratura, 1 nəfəri isə bakalavr pilləsində idi. İran İslam Respublikası Elm, Tədqiqat və Texnologiya Nazirliyinin 2016-cı ilə qədər olan statistikasına görə, İran İslam Respublikasındakı ali təhsil müəssisələrinin məzunu olan ermənilərin sayı cəmi 10 olmuşdur [6, s.113]. Bu kontekstdə yanaşdıqda İranın təhsil sahəsindəki siyasətinin asimetrik xarakter daşıdığı məlum olur. İran Ermənistana daha çox tələbə göndərməklə onların keyfiyyətli təhsil almasından daha çox, təsir imkanlarını genişləndirməyi hədəfləyir.

İki ölkə arasında imzalanan elmi və texniki əməkdaşlıq sazişləri – xüsusilə 1992 və 1994-cü illərdə bağlanmış müqavilələr [6, s.112-113], eləcə də 2000-ci ildə Elm və təhsil sahəsində əməkdaşlıqla bağlı iki ölkənin müvafiq nazirliklərinin rəhbərləri M.Moin və E.Kazaryan tərəfindən imzalanan razılaşma İranın Ermənistanda elmi mühitə təsir imkanlarını artırması üçün yeni fürsətlər yaratmışdır. Hələ 1992-ci ildən etibarən Ermənistanda "İrannamə" adlı elmi jurnal nəşr edilməyə başlamışdı. 1996-cı ilin dekabrında İran dövlətinin maddi dəstəyi ilə İrəvanda Qafqaz İranşünaslıq Mərkəzi yaradılmışdı. Mərkəzin direktoru iranşünas Qarnik Asatryan idi. Mərkəzin açılışında İİR prezidentinin köməkçisi Həsən Həbibian iştirak etmişdi [10, s.401].

Təhlillər göstərir ki, 1991-2025-ci illəri əhatə edən dövrdə İran elm və təhsil sahəsində əməkdaşlığı inkişaf etdirməklə əslində geosiyasi məqsədlərini reallaşdırmaq üçün baza yaratmağa çalışmışdır. Ermənistan isə bu əməkdaşlıqdan həm iqtisadi, həm də informasiya–ideoloji dəstək qazanmaqla regional təcrid vəziyyətini yumşaltmağa cəhd etmişdir.

1991-ci ildən sonrakı dövrdə İranda Ermənistanı və Cənubi Qafqazı, Ermənistanda isə İranı öyrənən bir sıra mərkəzlər yaradılmış və fəaliyyət göstərmişdir. İranın Ermənistandakı elmi mərkəzlərdə, xüsusilə də İrəvan Dövlət Universitetinin İranşünaslıq kafedrasında və Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda apardığı fəaliyyətlər diqqəti cəlb edir. Bu institutlar vasitəsilə İran özünü regionda "sivilizasiya mərkəzi", Ermənistan isə "İranla ortaq mədəni-tarixi irsə malik tərəfdaş" kimi təqdim etməyə çalışmış, hər iki dövlət bu mərkəzlərdə öz məqsədlərinə uyğun olan, eləcə də Azərbaycana qarşı yönəlmiş alternativ tarixi və mədəni narrativlər yaratmağa çalışmışlar. İDU-nun İranşünaslıq kafedrasının Tehran, İsfahan, Yəzd, "Cundişapur", Nişapur və Təbriz universitetləri ilə əməkdaşlıq əlaqələri vardır. 2023-cü ilin iyununda İrəvan Dövlət Universiteti və Tehran Dövlət Universiteti arasında imzalanmış memorandumа əsasən Tehran Universitetinin Qafqaz Araşdırmaları Mərkəzinin tədqiqatçılarının İrəvanda İranşünaslıq kafedrasının fəaliyyətində iştirak etməsi, birgə bakalavr və magistr proqramlarının hazırlanması barədə razılıq əldə olunmuşdur.

İrəvan Dövlət Universitetinin İranşünaslıq kafedrası və Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun tədqiqat fəaliyyətlərini analiz etdikdə bəlli olur ki, onlar ilk növbətə İran və Ermənistan alimləri arasında birgə nəşrlər və konfranslar vasitəsilə "ortaq tarixi köklər" konsepsiyasının legitimləşdirilməsinə çalışmışlar. Bu mərkəzlərdə aparılan "tədqiqat"ların bir qismi Azərbaycan mədəni irsinin təhrifinə yönəlmiş diskursunun formalaşdırılması məqsədi daşıyır.

İranda Qafqaz və Ermənistanla bağlı tədqiqat mərkəzlərinin (İRAS, Strateji Tədqiqatlar İnstitutu, Təbriz Universitetinin Qafqaz Mərkəzi və s.) fəaliyyəti formal olaraq elmi xarakter daşısa da, onların əsl funksiyası İranın Cənubi Qafqaz siyasətinin ideoloji əsaslandırılmasıdır. Bu mərkəzlər əsasən iki funksiyanı yerinə yetirirlər:

1. İran İslam Respublikası dövlətinin Qafqazla bağlı siyasətinin formalaşması üçün tədqiqatlar aparırlar və onlardan rəsmi dövlət qurumları istifadə edir;
2. Qafqaz regionunda İranın təsirini gücləndirmək üçün təbliğat məqsədi daşıyan materiallar hazırlayırlar.

Hazırda İİR-də üç ali təhsil müəssisəsində yalnız ermənişünaslıq tədqiqatları üzrə ixtisaslaşmış mərkəzlər fəaliyyət göstərir. Bu mərkəzlərdən ikisi ölkənin paytaxtı Tehran, biri isə İsfahan şəhərindədir [11, s.45]. Belə ki, Tehran Dövlət Universitetində Ermənişünaslıq kafedrası, Azad İslam Universitetinin Tehran Bölməsində Erməni dili və ədəbiyyatı kafedrası, İsfahan Universitetində isə Ermənişünaslıq Fakültəsi fəaliyyət göstərir.

İsfahan Universitetinin Ermənişünaslıq fakültəsi İranda Pəhləvi hakimiyyəti zamanında - 1960-cı ildə erməni icmasının səyləri ilə yaradılmışdır. Fakültə üçün erməni kilsəsi, Kalust Gülbəkyan Fondunun dəstəyi ilə 1970-ci ildə bina inşa edilmiş, binanın inşasına fond tərəfindən 25 min dollar vəsait ayrılmışdı. Kalust Gülbəkyan Fondu XX əsrin 60-cı illərində İsfahan Universitetində Ermənişünaslıq kitabxanasının yaradılması üçün 5.000 dollar pul vermişdi [2].

Tehran Azad İslam Universitetində Erməni dili və ədəbiyyatı fakültəsi 1995-ci ildə [11, s.45], Tehran Universitetinin Ermənişünaslıq kafedrası isə 2011-ci ildə yaradılmışdır [2].

Ermənilər daha çox ermənişünaslıq tədqiqatlarını İran-Ermənistan əlaqələrinin tarixi yönündə istiqamətləndirirlər. Burada güdülən məqsədlər kifayət qədər mürəkkəbdir. Belə ki, bununla ermənilər özlərinin də İran qədər qədim dövlətçilik tarixinə malik olmalarını şüurlara yeritməyə çalışırlar. Bunun üçün bəzi hallarda onlar ermənişünaslığı İranşünaslığın tərkib hissəsi kimi göstərməkdən belə çəkinmir, bu yolla İran dövlətinin ermənişünaslıq tədqiqatlarını dəstəkləməsini təşviq edirlər.

Ermənişünaslıq mərkəzlərində əsas öyrənilən istiqamətlərdən biri qədim erməni dili – qrabardır. Bunun səbəbi ondan ibarətdir ki, orta əsrlərdə Qafqazda və İranda yaradılmış xristian yazılı mənbə və sənədləri sonrakı dövrlərdə qrabara köçürülmüşdür. Kilsə bunu həyata keçirməklə müasir dövrdə bu əsərlərin "qədim erməni ədəbiyyatının nümunələri", onların qeyri-erməni müəlliflərinin isə erməni kimi təqdim olunmasına nail olmuşdur. Musa Xorenatsi, Yeğişe, Ğazar Parpetsi, Favtos Buzand, Arakel Təbrizli, kimi müəlliflər və onların yazdıqları mənbələr bir çox tədqiqatçıların iddialarına görə sonradan qrabarlaşdırılmış və saxtalaşdırılmışdır.

Bir çox hallarda İran hakimiyyəti ermənişünaslıq tədqiqatlarının davam etdirilməsi, bu istiqamətdə kadrların yetişdirilməsi üçün güzəştlər də tətbiq edir. Məsələn İsfahan Universitetində tələbələrin bu fakültədə təhsil almasına marağını artırmaq üçün ali təhsil müəssisəsinin rəhbərliyi kafedranın maliyyələşməsini öz üzərinə götürmüş və təhsil haqqını aşağı salmışdı. İranın dövlət maraqları ilə əlaqədar olaraq bu fakütlərdə təhsilə xeyli sayda fars millətindən olan gənc İran vətəndaşları da cəlb edilmişdir.

Həm Ermənistan, həm də müxtəlif xarici ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları İranda ermənişünaslıq mərkəzlərinin fəaliyyətini dəstəkləyirlər. Təsadüfi deyildir ki, Tehran Universitetinin Ermənişünaslıq kafedrasının yaradılması İrandakı Ermənistan səfirliyinin və İrəvan Dövlət Universitetinin birgə təşəbbüsünün nəticəsi olmuşdur [9]. Tehran Azad İslam Universitetindəki Erməni dili və ədəbiyyatı fakültəsi isə Yerevan Hraçya Açaryan Universiteti ilə imzalanmış əməkdaşlıq müqaviləsi əsasında yaradılmışdır.

İrandakı ermənişünaslıq mərkəzləri əsasən dörd istiqamət üzrə fəaliyyət göstərirlər: tədqiqatların aparılması, təhsil, konfrans və digər elmi toplantıların təşkili, nəşriyyat fəaliyyəti.

Ermənişünaslıq mərkəzlərində çalışan tədqiqatçıların sırasında Məhəmməd Məlikməhəmmədi, Andarik Simonyan (Tehran Azad İslam Universitetinin Erməni dili və ədəbiyyatı kafedrasının müdiri), Mehdi Cəfərzadə xüsusilə seçilirlər. M.Məlikməhəmmədi və M.Cəfərzadənin ermənicə və Avestanın yazıldığı dil arasında müqayisəli təhlillərə həsr olunmuş əsərləri ("Avesta və qədim erməni dillərində isim dəyişikliyinin tədqiqi") erməni dilini qədimləşdirmək, gələcəkdə "Avesta"ya qarşı irs iddiaları irəli sürmək üçün ermənilərə "əsaslar" verə bilər. Son dövrlərdə isə Məhəmməd Məlikməhəmmədinin tədqiqatlarında xüsusi bir istiqamət kimi Cənubi Qafqazda sülh və təhlükəsizlik, erməni-türk münaqişəsinin gələcəyi mövzusu üstünlük təşkil etməkdədir.

Mərkəzlərin fəaliyyəti təkcə tədqiqat və təhlillərlə məhdudlaşmır. İki ölkənin ermənişünas alimlərinin fəaliyyətlərinin əlaqələndirilməsi üçün birgə toplantılar və konfranslar təşkil olunur. İlk

belə konfranslardan biri hələ 1998-ci ilin dekabr ayının 19-da İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Tədqiqatlar Mərkəzi, Tehrandakı Erməni Tədqiqatları İnstitutu və İrəvandakı Qafqaz İranşünaslıq Mərkəzinin təşkilatçılığı ilə Tehranda keçirilmişdir. Bu 1991-ci ildən bəri iki ölkə arasında əlaqələrin müzakirə edildiyi ilk irimiqyaslı "elmi" tədbir idi. Həmin konfrans "İran-Ermənistan: dünən, bu gün və sabah" adlanırdı [11, s.86]. Konfransda Ermənistan Prezidentinin müşaviri V.Hovanesyanın və İranın xarici işlər nazirinin müavini K.Xərrazinin iştirak etməsi toplantının elmilikdən daha çox, siyasi xarakter daşıdığını sübut edirdi. Konfransda tarixi mövzulardan daha çox siyasi mövzular müzakirəyə çıxarılmışdı. Bu mövzular Qərb və Cənubi Qafqaz ölkələrinin siyasi problemləri, onlardan istifadə imkanları, İranın Ermənistan və Azərbaycanla münasibətləri, Cənubi Qafqazda geosiyasi proseslərdə rolu, iki ölkə arasında iqtisadi əlaqələrin mümkün gələcəyi ilə bağlı idi.

İrəvanda Qafqaz İran Araşdırmaları Mərkəzi tərəfindən 1999-cu il mayın 18-19-u tarixlərində "Rusiya, Ermənistan, İran: sivilizasiyaların dialoqu" mövzusunda beynəlxalq konfrans keçirilmişdi [8, s.45].

Tehran Azad İslam Universitetində 2000-ci ilin oktyabrında İran və Qafqaz antropologiyası elmi forumu keçirilmişdi. "İnsan – tədqiq – mədəniyyət – əlaqələr" adlanan forumun keçirilməsi ideyası İran Prezidenti Seyid Məhəmməd Xatəmi tərəfindən 1999-cu ildən irəli sürülən mədəniyyətlərarası dialoq konsepsiyasına əsaslanırdı. Forumda edilən məruzələrdə İran və erməni xalqlarının hansısa "çoxəsrlik" mədəni əlaqələrindən bəhs edilirdi [11, s.87].

İsfahan Universitetində 2006-cı ildə "İran-Ermənistan ədəbi körpülər konfransı", 2008-ci ilin noyabrında "I Ermənişünaslıq və İranşünaslıq konfransı" keçirilmişdi. Konfrans İsfahan Universitetinin Erməni dili və Ədəbiyyatı Fakültəsinin 50, ermənilərin müsəlman İran mədəniyyətinə və cəmiyyətinə qoşulmasının 400 illiyinə həsr olunmuşdu. Təbii ki, ermənilərin İran islam cəmiyyətinə qovuşmasının 400 illiyi dedikdə, ermənilər I Şah Abbas tərəfindən guya Qafqazdan İsfahana "Böyük sürgün" prosesi nəticəsində köçürülmələrinə nəzərdə tuturdular. Böyük sürgün zamanı Qafqazdan köçürülənlər ermənilər olmamışlar [4, s.141-160].

Konfransda aşağıdakı bölmələrdə müzakirələr aparılmışdı: İran-erməni ədəbi və mədəni əlaqələri, erməni coğrafiyası və mənbələrinin İranşünaslıq, İslamşünaslıq və Şərqşünaslıq tədqiqatları üçün əhəmiyyəti, təktanrılı dinlərin teologiyası və dialoqu, ikitərəfli əlaqələrinin strateji tədqiqi, dilçilik, İran və erməni dilləri.

Qeyd edək ki, II Ermənişünaslıq və İranşünaslıq Konfransı 2011-ci ildə Matenadaranda Mesrop Maştos adına Elmi tədqiqat İnstitutunun təşkilatçılığı ilə keçirilmişdir. Konfransların təşkilatçıları sonrakı illərdə digər adlar altında "elmi toplantılar" da keçirmiş və bu toplantılar əksər hallarda Ermənistanda təşkil edilmişdir. 2023-cü ilin mayın 31-də İrəvan Dövlət Universitetində keçirilən "Ermənistan-İran minillik dostluq və regional proseslər" adlı dəyirmi masada Vardan Voskanyan (İDU İranşünaslıq kafedrasının müdiri), Ruben Melkonyan (İDU Şərqşünaslıq Fakültəsinin dekanı), Artyom Tonoyan, Qarik Misakyan, Liana Petrosyan, Siranuş Vardanyan kimi erməni tədqiqatçıları ilə yanaşı, İrandan olan tədqiqatçılardan İbrahim Mottaği (Tehran Universitetinin Hüquq və siyasi elmlər fakültəsinin dekanı), Cəfər Xaşe (TU Qafqaz Araşdırmalar Mərkəzinin direktoru), Zəhra Postinj də məruzələr etmişlər.

Nəticə. Tədqiqatlar aydın şəkildə göstərir ki, İran və Ermənistan arasında elm və təhsil sahəsindəki əməkdaşlıq, humanitar əməkdaşlıq formasında təzahür etsə də, mahiyyət etibarilə dərin və məkrli məqsədlər daşıyır. Xüsusən elm sahəsində əməkdaşlıq etməklə hər iki tərəf "ortaq tarixi irs" və "sivilizasiya körpüsü" narativlərindən istifadə edir, elmi fəaliyyət pərdəsi altında Azərbaycanın tarixi və mədəni irsinə qarşı yönəlmiş təhrif olunmuş tarixi anlayışların yayılmasına çalışırlar.

İran Ermənistandakı təhsil və elmi mərkəzlər vasitəsilə öz təsirini gücləndirir, Ermənistan isə İrandakı erməni diasporu və məktəbləri vasitəsilə öz ideoloji təsir dairəsini genişləndirməyə çalışır. Bu proses Azərbaycanın milli maraqlarına və regional təhlükəsizliyinə birbaşa təsir göstərir. Regionda qarşılıqlı anlaşmanın və sülhün deyil, etnik və mədəni qütbləşmənin dərinləşməsinə səbəb olur.

Nəticə etibarilə İran və Ermənistan arasında bu sahədə əməkdaşlıq nəticəsində, elm və təhsil siyasətin xidmətində olan, onun həyata keçirilməsi üçün alət kimi istifadə edilən bir sahəyə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Abadi, M.C. What Iranians seek in war scarred Armenia: alchol, social freedom and maybe a new life: [Digital resource] / Equal times, October 7, 2022. URL: https://www.equaltimes.org/what-iranians-seek-in-war-scarred?lang=en [01.10.2025].
2. Hovyan, V. The Armenian studies in modern Iran: [Digital resource] / "Globus" analytical bulletin, №10, –2014. URL: www.noravank.am/eng/issues/detail .php?element_id=12984 [01.10.2025].
3. İftixari, A.H. İran İslam Respublikasının Qafqaz siyasəti (1991-2005-ci illər): / tarix elmləri namizədi dis./ –Bakı, 2007. –161 s.
4. Kəlbizadə, E.H. İranda erməni icması, "Böyük sürgün": həqiqətlər və miflər // "Ortaçağ Azərbaycan tarixinin aktual problemləri" mövzu-sunda respublika konfransının materialları, -Bakı, Qərbi Kaspi Universiteti, -2021. –s. 141-160/
5. Kelbizadeh, E.H. Armenian community and diaspora factor in Iran-Armenia relations // –Baku: Caucasus studies, –2020, № 1, –pp. 20-22.
6. Koolaee, E., Hosseini, S.M. Science Diplomacy of the Islamic Republic of Iran in the South Caucasus // International Studies Journal (ISJ), –Spring 2019. Vol. 15, № 4 (60), –pp. 99-131.
7. Onullahi, S.M. Erməni millətçiləri və İran / S.Onullahi. –Bakı: Maarif, –2002. –87 s.
8. Арабаджян, А.З. Россия, Армения, Иран: диалог цивилизаций // Исламская революция в Иране: прошлое, настоящее, будущее (Сборник статей). –Москва: Институт Востоковедения РАН, –1999. –214 с.
9. В университете Тегерана откроется кафедра арменоведения: [Электронный ресурс] / –Ереван: Yerkrmas, –19 октября, 2011. URL: http://www.yerkramas.org/ 2011/10/19/v-universitete-tegerana-otkroetsya-kafedra-armenovedeniya/ [01.10.2025].
10. Куртов, А.А. Армяно-иранские отношения // Армения: проблемы независимого развития / Ред. Е.М.Кожокин. –Москва: РИСИ, –1998. –с. 383-448.
11. Месамед, В.И. Иран и немусульманские страны Южного Кавказа (Армения и Грузия) / В.И. Месамед. –Москва, –2015. –254 с.
12. نظام آبادی، م. روابط فرهنگی ایران و ارمنستان: ظرثیت‌ها و پتانسیل‌ها// -تهران: قصلنامهانجمن ایرانی مطالعات فرهنگی و ارتباطات، -1395، سال دوازدهم، شماره ۱۴۴، ص. 66-87

ЭЛНУР КЕЛБИЗАДЕ
Кандидат исторических наук, доцент
Бакинский славянский университет

ЗАКУЛИСНЫЕ АСПЕКТЫ И РЕАЛИИ СОТРУДНИЧЕСТВА ИРАНА И АРМЕНИИ В СФЕРЕ НАУКИ И ОБРАЗОВАНИЯ

В статье исследуется подлинная сущность сотрудничества между Ираном и Арменией в области науки и образования — одного из ключевых направлений их «гуманитарного и культурного взаимодействия» в 1991–2025 гг. Проведённый анализ показывает, что сотрудничество в сфере науки и образования, хотя формально осуществлялось под прикрытием гуманитарного партнёрства, фактически служило региональным и геополитическим целям обеих сторон. Более того, совместная деятельность нередко была направлена против Азербайджанской Республики, чьи интересы пересекаются и сталкиваются с интересами Ирана и Армении. Для Ирана это взаимодействие стало эффективным инструментом расширения влияния на Южном Кавказе, особенно через Армению, с целью утвердить себя в качестве «цивилизационного центра» и сформировать альтернативные историко-культурные нарративы, направленные против Азербайджана. Для Армении же оно представляло возможность получить экономическую и идеологическую поддержку со стороны Ирана и использовать армянскую диаспору на его территории для усиления собственной пропаганды.

Ключевые слова: Иран, Армения, гуманитарное сотрудничество, наука, образование, геополитика, исторический нарратив.

ELNUR KELBIZADE
PhD in History, Associate Professor
Baku Slavic University

BEHIND-THE-SCENES ASPECTS AND REALITIES OF IRAN-ARMENIA COOPERATION IN THE FIELD OF SCIENCE AND EDUCATİON

This article examines the true nature of cooperation between Iran and Armenia in the fields of science and education - one of the main directions of their so-called "humanitarian and cultural collaboration" during the period 1991–2025. The study reveals that although this cooperation was formally framed as humanitarian interaction, in practice it served the regional and geopolitical objectives of both states. Joint activities in these areas were, in many cases, directed against the Republic of Azerbaijan, whose interests intersect and conflict with those of Iran and Armenia. For Iran, such cooperation represented a strategic tool to expand its sphere of influence in the South Caucasus – particularly through Armenia - by positioning itself as a "civilizational center" and constructing alternative historical and cultural narratives aimed at Azerbaijan. For Armenia, it provided an opportunity to gain economic and ideological support from Iran and to disseminate its propaganda through the Armenian diaspora residing on Iranian territory.

Keywords: Iran, Armenia, humanitarian cooperation, science, education, geopolitics, historical narrative.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.ü.f.d. Kəmalə Ruintən, s.e.d. Adil Mirabdullayev.